# Heydər Əliyev və Azərbaycançılıq siyasətimizin əsasını təşkil edən əbədi ideya...

**İstənilən xalqın inkişafı, tərəqqisi işində müasir dünyada təzahür edən və böyük rola malik ideoloji cərəyanlardan biri milli ideologiyadır. Tarixi baxımdan onun inkişafı orta əsrlərdə bu istiqamətdə formalaşmış strukturların dağılması və yeni ictimai-iqtisadi quruluşun və bunun nəticəsində formalaşan millətlərin təşəkkülü ilə əlaqədardır.**

Bütövlükdə ideologiyanın milli tipi vətəndaşların cəmiyyətə siyasi tələblərini ifadə edir, onların sosial statusunu milli mənsubiyyətlə və milli-mənəvi dəyərlərlə yüksəltməyə istiqamətlənir. Milli ideologiya hər şeydən əvvəl milli dəyərlərin təbiətinin bu və ya digər səviyyədə başa düşülməsini ehtiva edir. Daha dəqiq desək, müəyyən tarixi şəraitdə yaranmış milli ideologiya mədəni normalarla və milli-mənəvi dəyərlərlə əhatə olunmuş milli özünüdərki və milli ruhu təcəssüm etdirir, milli-mədəni yekcinsliyin güclənməsinə imkan yaradır. Bu baxımdan, ölkəmizdə əsası Heydər Əliyev tərəfindən qoyulmuş AZƏRBAYCANÇILIQ ideologiyasının formalaşması dövlətçiliyimiz və xalqımızın inkişafında mühüm rol oynamış, milli özünüdərkin və milli ruhun dirçəlməsinə səbəb olmuşdur.

Keçən əsrin 80-ci illərinin sonları xalqımızın milli özünüdərki tarixində önəmli yer tutur. Həmin dövrdə bu prosesin baş qaldırması və tədricən güclənməsinin əsas səbəbi SSRİ adlanan böyük bir coğrafi məkanda yaşayan millətlərə, o cümlədən, xalqımıza qarşı məqsədyönlü təzyiqlərin artırılması, millətin mental dəyərlərdən və adət-ənənələrdən uzaqlaşdırılması, xalqın təbii sərvətlərinin istismarı, müstəqil siyasi fəaliyyətin qarşısının alınması və s. bu kimi mərkəzdə planlaşdırılmış siyasətin aparılması idi və əslində, bu siyasət yarandığı gündən məhvə məhkum idi. Ötən əsrin 90-cı illərinin əvvəllərində SSRİ-nin dağılması ilə istiqlaliyyətini bərpa etmiş Azərbaycanda xalqın milli birliyinin yaradılması ən aktual vəzifə kimi qarşıda dayanırdı. Çünki həmin dövrün ortaya çıxartdığı çətinliklərin və problemlərin həlli, eləcə də, müstəqilliyin daha etibarlı şəkildə qorunmasının təmin edilməsi, milli dövlətçilik ənənələrinin bərqərar olması yalnız xalqın ideya birliyinin yaradılmasından asılı idi. Lakin çox təəssüf ki, müstəqilliyin ilk illərində respublikaya rəhbərlik edən qüvvələr bu tarixi zərurəti obyektiv şəkildə qiymətləndirə bilmədilər. Nəticədə Azərbaycanda cəmiyyətin bütün təbəqələrini əhatə edən siyasi pərakəndəlik və ideoloji parçalanma meyilləri müşahidə edilməyə başlandı. Halbuki, o dövrdə ümummilli birliyə nail olmaq üçün kifayət qədər obyektiv şərait mövcud idi. Ən acınacaqlısı isə o idi ki, bu pərakəndəlik xaricdə yaşayan soydaşlarımız arasında da özünü açıq şəkildə büruzə verirdi. O dövrdə hakimiyyətdə olan qüvvələr bu kimi taleyüklü problemləri həll etmək əvəzinə siyasi naşılıq göstərərək milli birlik, milli özünüdərk kimi mühüm siyasi problemlərin həllini şəxsi mənafe və ambisiyalarına qurban verdilər.

Həmin dövrdə baş verən hadisələr insanlar arasında milli özünüdərk prosesini gücləndirmiş, ictimai həyatın demokratikləşdirilməsi və Azərbaycanın müstəqilliyi ideyası yüz minlərlə vətəndaşı küçə və meydanlara çıxarmış, milli-azadlıq ideyasının təkamülünə səbəb olmuşdu. Bu dövrdə geniş vüsət almış ümumxalq hərəkatı Azərbaycan xalqını milli birlik və respublikanın azadlığı ideyası ətrafında sıx birləşdirmişdi. Əsrlərdən bəri bu xalqı fitnə-fəsadla parçalayıb milli birliyini pozan bədxahlarımızı qorxudan əsas səbəb xalqımız arasında yaranmış bu birlik və həmrəylik idi. Həmin dövrdə Naxçıvan Muxtar Respublikasında xalqımızı iki əsrə yaxın bir müddətdə iki yerə parçalayan Araz çayı boyunca çəkilmiş sərhəd məftilləri üzərinə hücum, əslində, xalqımızın taleyinə biganə olan Sovet hakimiyyətinə, Azərbaycanın taleyinə laqeyd olan rəhbərlərin üzərinə bir həmlə idi. Yüz illərdən bəri heç kimin cəsarət edib yaxınlaşa bilmədiyi sərhəd dirəklərinin sökülməsi cənublu şimallı bütöv bir xalqın bir-birinə qovuşması mərkəzi hakimiyyəti lərzəyə saldı və bu hakimiyyət o vaxtdan sonra bir daha özünə gələ bilmədi.

Ulu öndərimiz Heydər Əliyev Naxçıvan Ali Məclisinin Sədri kimi fəaliyyət göstərdiyi dövrün əvvəllərində - 1991-ci ilin dekabrında Naxçıvan MR Ali Məclisi 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Gününün təsis edilməsi haqqında tarixi qərar qəbul etdi. Əslində, bu, təkcə xalqımızın birliyinin və həmrəyliyinin təmin edilməsi istiqamətində atılmış addım deyildi, həm də xalqın bir məslək uğrunda birləşdirilməsinə xidmət edəcək azərbaycançılıq ideologiyasının əsasının qoyulması demək idi. Qeyd edək ki, 1991-ci il dekabr ayının 25-də Azərbaycan Respublikasının Ali Soveti Naxçıvan MR Ali Məclisinin təşəbbüsünü dəstəkləyərək 31 dekabrı Dünya Azərbaycanlılarının Həmrəylik günü elan etdi və həmin günün hər il milli dövlət bayramı kimi qeyd olunması barədə qərar çıxartdı. Məhz bu ideoloji zəmin dünya azərbaycanlıları ilə işi dövlət səviyyəsində uğurla həyata keçirməyə, digər tərəfdən, onları ölkəmizdəki iqtisadi layihələrə cəlb etməyə və beləliklə də, Vətənimizlə daha sıx bağlamağa stimul yaratmışdır.

2001-ci il noyabr ayının 9 və 10-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayında xalqımızın milli birliyinə mane olan məsələlər geniş müzakirə olundu və cəmiyyətin bütövlüyünü təmin etmək məqsədilə müəllifi Ümummilli liderimiz Heydər Əliyev olan azərbaycançılıq ideologiyası barəsində geniş fikir mübadiləsi həyata keçirildi.

Bu gün Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı olan Azərbaycan Prezidenti cənab İlham Əliyev də dəfələrlə həmvətənlərimizin ümumi maraqlarımız ətrafında birləşməsinin tarixi zərurət olduğunu vurğulamış və Ulu Öndər Heydər Əliyevin bu sahədə əldə etdiyi nailiyyətlərə əsaslanaraq daha da irəli getmək üçün mühüm addımlar atılacağını bəyan etmişdir: "Azərbaycançılıq ideyasının birləşdirici dəyər kimi bütün dünyada yaşayan azərbaycanlılar arasında yayılması, dilimizin, mədəniyyətimizin, mütərəqqi adət-ənənələrimizin, tariximizin yaşadılması və inkişaf etdirilməsi Prezident Heydər Əliyevin ideyası idi. Düşünürəm ki, bütün dünyada yaşayan soydaşlarımızın mədəni-mənəvi birliyinin mühüm şərti olaraq bu ideya bu gün də, gələcəkdə də bizim siyasətimizin əsasını təşkil edəcəkdir".

Bəli, yeni dünya düzəmində doğma Azərbaycanımızın necə olacağı, hansı yeri tutması məsələsi aydındır ki, xalqımızın birliyindən, monolitliyindən, necə səfərbər olmasından, nəhayət, vahid bir ideologiya - AZƏRBAYCANÇILIQ ideologiyası ətrafında necə birləşəcəyindən çox asılıdır.

***İlahə Həsənova***
***ADNSU, Humanitar fənlər kafedrasının müəllimi***